# Başından duman – çən çəkildi, Şuşam!

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Sentyabrın 27-də başlayan əks-həmlə əməliyyatları ilə Silahlı Qüvvələrimiz addım-addım Şuşaya yaxınlaşırdı, bu, dövlətimizin başçısının dediyi kimi, uğura bir nəfəs qədər yaxın olduğumuzdan xəbər verirdi, müzəffər Ali Baş Komandanımızın Türkiyə mətbuatına verdiyi müsahibələrin birində “Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar” - söyləməsi də bu qələbəyə yönələn ümid və əminliyimizi daha da artırırdı.

Nəhayət, o gün gəldi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərək dedi: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!”

Dövlətimizin başçısı müraciətində, həmçinin bu qədim şəhərimizin Azərbaycan tarixində xüsus yer tutduğunu, azərbaycanlıların əsrlərboyu burada yaşayıb-yaratdıqlarını bildirdi. Prezident daha sonra əlavə etdi ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi, məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi, məscidlərimizi bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir: “Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır”.

Azərbaycan Prezidenti müraciətində, həm də xalqa Şuşanın işğaldan azad edilməsi müjdəsini verməsini həyatında bəlkə də ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”




***Şuşa işğal edildiyi gündən-1992-ci il mayın 9-dan ötən 28 ildə heç kimdə Şuşanın nə vaxtsa yağı tapdağından xilas olunacağına şübhə yox idi. Son 17 ildə isə hamımızda o günün tezliklə gələcəyinə, doğma Qarabağımızın “döyünən ürəyinin” düşməndən azad ediləcəyinə qəti əminlik vardı. Bu inamı, ümidi Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti sayəsində ordumuzun gündən-günə artan güc-qüdrəti yaratmışdı.***

***

O gün Ali Baş komandan Fəxri xiyabanda qüdrətli dövlət xadimi Heydər Əliyevin, Şəhidlər xiyabanında şəhidlərimizin məzarlarını ziyarət etdikdən sonra xalqımıza verdiyi həmin müjdə- “Şuşa azad edildi” xəbəri bütün dünyaya ildırım sürətilə yayıldı.

O gün bütövlük, dəyanət, rəşadət, ləyaqət kimi dəyərlərin şərtləndirdiyi və xalqımızın düz 28 il yarım səbrsizliklə, həsrətlə gözlədiyi bu qələbə Azərbaycanın şanlı tarixinə yazıldı.

O gün Ali Baş Komandan İlham Əliyevin həyatında özünün dediyi kimi, ən xoşbəxt, bəxtəvər günlərindən biri idi.

O gün Ali Baş Komandanın müjdəsi təkcə sentyabrın 27-dən bu yana işğal altındakı torpaqlarımızın azad edilməsi ilə bağlı növbəti qələbə xəbəri deyildi, həm də son 17 illlik prezidentlik fəaliyyətinin sevinc, fərəh dolu bir gündə atanın – ümummilli lider Heydər Əliyevin – “Mən ona özüm qədər inanıram” etimadının oğul tərəfindən doğruldulması, ata vəsiyyətinə ləyaqətlə əməl edilməsi və ötən illər ərzində yurd, torpaq uğrunda qanlarından-canlarından keçən şəhidlərimizin ruhları önündə hesabatı idi.

Bu, həm də bir qərinəyə yaxın yolda hər səhifəsinə ağrı-acılar hopan, min bir əzab-əziyyətlə uğurlar yazılan və qarşıda üzərimizə düşən şərəfli vəzifənin ifadə olunduğu bir hesabat idi.

Nəhayət, bu tarix–8 noyabr 2020-ci il Azərbaycanın müasir müstəqil dövlət kimi qurulmasında və inkişafında müstəsna rolu olan qüdrətli dövlət xadimi Heydər Əliyevin ərazi bütövlüyümüzün bərpa olunması arzusunun gerçəkləşdiyi və ruhunun şad olduğu bir gün idi. Bu tarix 20 Yanvar, 20 Noyabr, Xocalı, I və II Qarabağ müharibəsi şəhidlərinin müqəddəs ruhlarının şad olduğu və rahatlıq tapdığı bir gün idi. Nəhayət, bu tarix Xankəndi, Laçın, Kəlbəcər və Ağdamın azad olunacağı günün “bir nəfəs qədər yaxın” olacağından xəbər verirdi.

***

Ermənilər ötən 17 ildə hansı oyunlar, hansı pəstahlar çıxartmadılar?!. Havadarlarına arxalanaraq sülh danışıqlarından, işğal etdikləri torpaqları azad etməkdən boyun qaçırdılar. Bununla kifayətlənməyib, “Qarabağın döyünən ürəyi”, “musiqi və incəsənət beşiyi” olan Şuşanı gələcəkdə, hətta Qarabağın paytaxtı elan etmək, qondarma rejimin parlamentini bu əzəli, tarixi şəhərimizə köçürmək iddiasını səsləndirdilər... Paşinyan beynəlxalq norma və qaydaları pozaraq tez-tez Qarabağa gəlir, burada görüşlər keçirir, keyf məclisləri qurur, separatçı rejimin nümayəndələri ilə yallı gedir, hələ bunlar azmış kimi bu iyrəncliyi televiziya ilə nümayiş etdirir, “Qarabağ Ermənistandır, nöqtə” kimi məsuliyyətsiz bəyanatlar verirdi. Düşmən bununla da Azərbaycan xalqında bir ümidsizlik yaratmaq, inadımızı qırmaq, inamımızı sarsıtmaq, sonda isə Qarabağı Ermənistana birləşdimək məqsədi güdürdü. Lakin Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər ordumuz ermənilərin bu planlarını alt-üst etdi, onların arzularını ürəyində qoydu!

***

Şuşa Qələbəsi, Şuşa Uğuru müzəffər Azərbaycan Ordusunun bütün güc-qüdrətinin, dünyanın ən müasir orduları sırasında yer aldığının, əsgər və zabitlərimizin igid, cəsur və qorxmazlığının, peşə bacarığı və ruh yüksəkliyinin təsdiqi idi.

Bu Qələbə, bu Uğur ermənilərin “məğlubedilməz ordusu” haqqında mifi, yalanı, uydurmanı alt-üst etdi.

Bu Qələbə, bu Uğur Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əsl siyasətçi, diplomat və sərkərdə kimi fəaliyyətinin məntiqi nəticəsi idi.

Şuşa Qələbəsi, Şuşa Uğuru Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi.

***

Şuşa Qələbəsi, Şuşa Uğuru haqqında bundan sonra çox deyiləcək, çox yazılacaq. Şuşa döyüşü, Şuşa müharibəsi Azərbaycan Ordusunun parlaq zəfər salnaməsinə həkk ediləcək. Hərbi ekspertlərin dedikləri kimi, tanksız, topsuz, artilleriyasız, göydə 3-cü Ordumuza çevrilən pilotsuz kamikadzelərin müşayiəti olmadan 1500-1800 metr yüksəkliklərdə döyüşlər apararaq bu Qalaya daxil olmaq gələcəkdə onlarla dövlətin və silahlı qüvvələrin hərbi taktikasının heyrətamiz istinadgahlarından birinə çevriləcək. Hələlik isə o döyüşlər barədə xarici təhlilçinin bir fikrini oxucularla bölüşmək istərdim. Yeri gəlmişkən, bu cür dəyərləndirmə ordumuzun, başqa sözlə, xalqımızın döyüş əzmi, mübarizliyi, qəhrəmanlığı haqqında aydın təsəvvür yaradır. Beləliklə, ukraynalı hərbi analitik Aleksey Arestoviçin Feysbuk səhifəsində yazdığına diqqət yetirək: “…Azərbaycan əsgəri Şuşanı piyada döyüşləri ilə, daşına bilən ağır sursatlarla, duman içində, göz-gözü görməyən çətin hava şəraitində dağlardan keçərək qaytardı. Azərbaycan əsgəri Şuşanı PUA-larsız, tanksız, artilleriyasız işğaldan azad etdi. Bu, “…hər şey dronlarla edildi ” deyənlərin nə qədər haqsız, ədalətsiz olduqlarını bir daha təsdiqlədi. Bu, israillilərin 1967-ci ildə Ağlama Divarına çıxmasına bərabər, bəlkə də ondan üstün bir döyüş idi… Bu, Vətənə qayıdış, ədalətli Tarixə qayıdış idi. Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu?!. Sualı cavablandırmaq, nə isə demək, danışmaq çox çətindir. Şəhidi çiyinlərində, yaralını qollarında, döyüşə-döyüşə, qan-tər içində nəfəsini belə dərmədən qalxırdı üzü dağ yuxarı Şuşaya doğru Azərbaycan əsgəri…”

***

Şuşa yenə də 28 il bundan əvvəlki xoş günlərini yaşayacaq, sevinc dolu sabahların ümidi ilə neçə-neçə uğura imza atacaq. Başından duman-çən çəkilən şəhərin abadlıq- quruculuq işləri geniş vüsət alacaq, buradakı müqəddəs ocaqlar, mədəniyyət və incəsənətimizin böyük simalarından Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın və Bülbülün evmuzeyləri, görkəmli şair Molla Pənah Vaqifin məqbərəsi yenə də ziyarətgahlara dönəcək, erməni vandalizminin qurbanına çevrilən tarixi, mədəni abidələrə həqiqi sahiblərinin-sakinlərin gücü və əzmi ilə yenidən “nəfəs” veriləcək. Şuşa dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi keçiriləcək mərasimlərə evsahibliyi edəcək, məşhur turizm məkanı kimi şöhrət qazanacaq.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 12 noyabr.- S.8.